## “Payız semestrinin dərsləri əsasən onlayn davam edəcək”

*Èëùàì Àõóíäîâ, Êàíàäàíûí Âàòåðëîî Óíèâåðñèòåòèíèí ïðîôåññîðó:*

– Kanadada hazırda COVID-19 ilə mübarizə 3-cü fazaya keçmək üzrədir və bu mərhələdə bir çox müəssisələr və ictimai yerlər sağlamlıq və təhlükəsizliyin qorunması üçün tədricən bəzi məhdudiyyətləri tətbiq etməklə açılmağa hazırlaşır. Bəzi yüksək riskli yerlər isə fəaliyyətlərini etibarlı şəkildə bərpa edə bilənə qədər bağlı qalacaqlar.

Vaterloo Universiteti ictimai səhiyyə tövsiyələrinə və ən yaxşı təcrübələrə əsaslanaraq, kampus fəaliyyətlərini yenidən başlatmaq üçün hazırda plan və protokolları həyata keçirməkdə davam edir. Kampusdakı binalarda əsas xidmətlər, elmi tədqiqatlar və təsdiq olunmuş digər sahələr açıq formada davam edəcək. Sentyabr ayında I kurs tələbələri üçün nəzərdə tutulan dərslərin bir hissəsi kampusda veriləcək, bəzi laboratoriyalar və klinikalar fəaliyyətlərini bərpa edəcəklər. Amma payız semestrinin dərsləri əsasən onlayn davam edəcək və kampusda qalan tələbələr verilən məhdud sayda dərsləri həm də onlayn ala biləcəklər. Yeni tədris ilinə hazırlıq mərhələsində – iyun ayında Vaterloo Universiteti tələbələr arasında qış/yaz onlayn semestrləri ilə bağlı sorğu keçirdi. Sorğuda, demək olar ki, 8500 tələbə iştirak etdi. Tələbələrin 18 faizi onlayn semestrin öhdəsindən olduqca yaxşı gəldiklərini bildirdi. Tələbələrin 60 faizi bu semestr vaxtı fəaliyyətlərinin “yüksəliş və enişli” olduğunu, 22 faizi isə onlayn təhsildə yaxşı iştirak edə bilmədiklərini qeyd etdilər. Onlayn təhsil formatında çətinlik çəkən tələbələr üçün əsas səbəblər dərs yükünün artması, motivasiyanın olmaması, təhsilin keyfiyyətinin azalması, evdən təhsil almaq problemləri, sinif yoldaşlarından ayrı qalma hissi və professorlarla ünsiyyətdə çətinliklər oldu. Onlayn təhsilin